

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# Şərq qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 233 (23.144)

*6 dekabr 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerlin, Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Opun, Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xeyrullah Spelenayın etimadnamələrini qəbul edib.

* * *

Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinə gələrək ABŞ-ın 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı verib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 5 dekabr tarixli sərəncamları ilə Azərbaycan Respublikasında rabitə və yüksək texnologiyalar sahəsində səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşları da vardır.

**Qasımov İsa Vəli oğlu**

"Tərəqqi" medalı ilə,

**Naibov Vidadi Vaqif oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə,

**Rüstəmov Rəşad Keykavuz oğlu**

"Əməkdar mühəndis" fəxri adı ilə təltif edilmişlər.

## Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təqdimatı olub

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il noyabrın 29-da Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında Sərəncam imzalamışdır.





Sərəncama əsasən Şahbuz rayonunun Ağbulaq kəndində kənd turizm-istirahət bölgəsinin yaradılması istiqamətində tədbirlər görülür.

Dekabrın 5-də Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təqdimatı münasibətilə tədbir iştirakçılarını və sakinləri təbrik edərək demişdir: Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılmasında məqsəd muxtar respublikada kənd turizminin bir bölgənin timsalında inkişafına nail olmaq və gələcəkdə digər kəndlərdə də tətbiq etməkdən ibarətdir. Bu gün dünyanın bir çox ölkələrində təmiz ekoloji şəraiti olan, flora və fauna ehtiyatının qorunduğu yerlərdə turizm bölgələri yaradılır. Muxtar respublikada da turizm bölgələrinin yaradılması üçün yerlər mövcuddur. Həmin yerlər içərisində ən əlverişlisi isə Ağbulaq kəndidir. Ona görə də Ağbulaqda turizm bölgəsinin yaradılması sahəsində tədbirlər görülmüş, kənd abadlaşdırılmış, müasir infrastruktur yaradılmış və kənddəki 65 ev yenidən qurularaq müasir şəraitlə təmin edilmişdir. Artıq Ağbulaq kəndi turizm istirahət bölgəsi kimi fəaliyyət göstərməyə hazırdır.

Ali Məclisin Sədri demişdir: Ağbulaq kəndində ilin bütün fəsillərində turizmi inkişaf etdirmək mümkündür. Təbiəti, havası və müasir infrastrukturu kənddə istər yaz, yay və payız, istərsə də qış turizminin inkişafı üçün geniş imkanlar açır. Qış turizminin inkişafı sahəsindəki imkanları nəzərə alınaraq kənddə dağ-xizək mərkəzinin qurulmasına başlanılmışdır. Turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər Ağbulaq kəndini təkcə muxtar respublikada deyil, ölkəmizdə və dünyada tanıdacaqdır. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi internet vasitəsilə turistlərə təqdim olunacaqdır. Turistlərin Ağbulaq kəndinə gəlməsi isə turizmin canlanmasına və ölkəmizin inkişafına töhfə verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Dünyanın bir çox ölkələrində turizmin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Azərbaycanda da turizmin inkişafı sahəsində tədbirlər görülür. Bu sahə ilə bağlı dövlət proqramı qəbul olunub və müvafiq qurum yaradılıb. Bu gün Azərbaycan dünyada həm də turizm ölkəsi kimi tanınır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası da turizm üçün çox əlverişlidir. Ona görə də muxtar respublikada mövcud imkanlardan səmərəli istifadə olunur, turizm bölgələri yaradılır və kəndlər abadlaşdırılır. Ağbulaq kəndində həm ekoloji və dağ, həm də kənd turizminin inkişafı üçün geniş imkanlar vardır. Vaxtilə kənddə Ağbulaq İstirahət Mərkəzi tikilərək istifadəyə verilmişdir. Bu il də kənddə turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər davam etdirilmiş, 1 milyon 500 min manat dəyərində yenidənqurma işləri aparılmış və kəndin siması tamamilə dəyişilmişdir.

Ali Məclisin Sədri aidiyyəti təşkilatlara tapşırıqlar verərək demişdir: Şahbuz Rayon İcra Hakimiyyəti Ağbulaq kəndində ailə təsərrüfatlarının inkişafını və ekoloji təmiz ərzaq məhsullarının yetişdirilməsini təmin etməli, bununla bağlı əhali arasında maarifləndirmə işləri aparılmalı, ailə təsərrüfatlarına dövlət dəstəyi göstərilməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilin bütün fəsillərində 1500 hektar əraziyə malik olan Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təbiətinin, flora və faunasının qorunması sahəsində tədbirlər görməli, yaşıllaşdırma işləri aparmalı və bu zaman yerli sortlardan istifadəyə üstünlük verməlidir. Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi turizm istirahət bölgəsinin torpaq ehtiyatlarını qorumalı və səmərəli istifadəsini təmin etməli, qanunsuz tikintilərin qarşısı alınmalı, bütün tikintilər layihə əsasında aparılmalı və pasportlaşdırılmalıdır. Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin turist marşrutuna daxil edilməsi və internet üzərindən tanıdılması sahəsində tədbirlər görməlidir. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti aid təşkilatlarla birlikdə qarşıya qoyulan vəzifələrin icrasını vaxtında başa çatdırmalıdır.

Ali Məclisin Sədri demişdir: Ağbulaq kəndi telefonlaşdırılıb, sürətli internetlə təmin edilib, təbii qaz və elektrik enerjisinin daimi verilişi təmin olunub və xidmət sahələri yaradılıb. Mövcud imkanlar və əhalinin maarifləndirilməsi kənddə turizmin inkişafına səbəb olacaqdır. Aid təşkilatlar əhalini maarifləndirməli, turizm bölgəsinin mahiyyəti izah olunmalıdır. Çünki Ağbulaq kəndinin turizm-istirahət bölgəsinə çevrilməsində bir



məqsəd də dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən bu ərazidə sakinlərin yaşayış səviyyəsini yaxşılaşdırmaqdan, onların məşğulluğunu təmin etməkdən və məskunlaşmanı artırmaqdan ibarətdir. Turizmin inkişafı kənddə insanların həyat səviyyəsini daha da yüksələcəkdir. Ona görə də yaradılanlar qorunmalı, kəndin abadlaşdırılması və turizmin inkişafı sahəsində görülən işlər bundan sonra da davam etdirilməlidir.

Ali Məclisin Sədri kəndin turizm potensialından səmərəli istifadə olunacağına əminliyini bildirmiş, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılmasında əməyi olanlara təşəkkür etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov çıxış edərək demişdir ki, Ağbulaq kəndində kompleks quruculuq işlərinə 2013-cü ildən başlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 2018-ci ilin aprel ayından kənddə yenidənqurma və abadlıq işlərinə başlanılmışdır. Evlərdə və yardımçı binalarda əsaslı təmir və yenidənqurma işləri aparılmış, kəndin elektrik təchizatı sistemi yenidən qurulmuşdur.

Ağbulaq kənd sakini Vidadi Məmmədov demişdir: Bu gün muxtar respublikada quruculuq işlərinin geniş vüsət alması, kəndlərin abadlaşması Ağbulaq kənd sakinlərini də ürəkdən sevindirir. 2013-cü ildə Ağbulaq kəndində müasir tələblərə cavab verən məktəb binası, kənd və xidmət mərkəzləri tikilərək istifadəyə verilmişdir. Bu il isə hər bir kənd sakininin evində yenidənqurma işləri aparıldı, həyətlərimiz abadlaşdı, yeni təsərrüfat binaları tikildi. Artıq kəndimiz turizm bölgəsinə çevrilib. Kəndimizdə istifadəyə verilən istirahət mərkəzi, məktəb binası, kənd və xidmət mərkəzləri, yollarımızın müasir səviyyədə yenidən qurularaq asfaltlanması, internetdən istifadə hər bir kənd sakinini qürurlandırır. Vidadi Məmmədov yaradılan şəraitə görə kənd sakinləri adından minnətdarlıq etmişdir.

Kənd ziyalısı Mirhəsən Tahirov demişdir: Muxtar respublikanın bütün rayonları kimi, Şahbuz rayonu da inkişaf dövrünü yaşayır. Ağbulaq kəndində yaradılan şərait həyata keçirilən tədbirlərin bariz nümunəsidir. Ali Məclis Sədrinin Ağbulaq kəndinə hər gəlişini sakinlər minnətdarlıq və sevinclə qarşılayır,

*Ardı 2-ci səhifədə*

həmin günü əlamətdar tarix kimi daim xatırlayırlar. Aparılan quruculuq işləri Ağbulaq kəndinin simasını əsaslı surətdə dəyişib. Bu gün kəndimiz şəhər təəssüratı yaradan qəsəbəyə çevrilib. Sakinlər yaradılan şəraitdən səmərəli istifadə edəcək, tikilənləri, qurulanları qoruyacaq, kənddə turizmin inkişafına öz töhfələrini verəcəklər.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Mayis Əliyev, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə, Turizm Departamentinin direktoru Əkbər Novruzov, Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev və Naxçıvan Muxtar Respublikasının baş naziri Əlövsət Baxşıyev Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması sahəsində görülən işlərlə bağlı məlumat vermişlər.

Ali Məclisin Sədri Naxçıvan-Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi turist marşrutunun xəritəsinə baxmışdır. Bildirilmişdir ki, turist marşrutu turistlərin Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinə rahat gedişini təmin edəcəkdir.

Kənddə görülən işlərlə tanışlıq zamanı qeyd olunmuşdur ki, "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" muxtar respublikada turizmin inkişafı üçün geniş imkanlar açır. Dövlət Proqramına uyğun olaraq Ağbulaq kəndində də kompleks işlər görülüb. Bu il kənddə 65 yaşayış evi və yardımçı bina əsaslı şəkildə yenidən qurulmuş, həyətlərə kilid və sal daşlar döşənmiş, yeni hasarlar hörülmüş, metal və taxta məhəccərlər quraşdırılmışdır. Kənddaxili avtomobil yollarına qum-çınqıl qatı verilmiş, su keçidləri salınmış, yeni yollar çəkilmiş, elektrik təchizatı sistemi yenilənmişdir. Yararsız olan təsərrüfat binaları sökülmüş və müəyyən olunmuş ərazidə 32 yeni təsərrüfat binası tikilmişdir.

## Ağbulaq Xizək Mərkəzinin tikintisi davam edir









Dekabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ağbulaq Xizək Mərkəzində aparılan tikinti işləri ilə tanış olmuşdur.

Fransanın "MND" şirkətinin mühəndisi Xavier Goya layihə üzrə görülən işlər barədə Ali Məclisin Sədrinə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, Ağbulaq kəndi dağ-xizək turizminin inkişafı baxımından ideal yerdir. Xizək mərkəzinin yaradılmasına 2018-ci ilin iyul ayından başlanılmış və tikinti işlərinin 80 faizi başa çatdırılmışdır. 1590 metr uzunluğundakı xizəksürmə zolağında və təlim meydançasında torpaq işləri görülmüşdür. Hazırda kanat dayaqlarının, 20 min kubmetr tutumu olan süni gölün, qaraj binasının, süni qar qurğuları üçün su və hava xəttinin qazma işləri davam etdirilir.

Ərazidə texniki bina da inşa olunacaq, xizəksürmə ləvazimatlarının satışı və kirayəsi həyata keçiriləcəkdir.

Ali Məclisin Sədri tikinti işlərinin keyfiyyətlə aparılması və təhlükəsizlik qaydalarına əməl olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*Muxtar respublikanın sosial-iqtisadi inkişafına əvəzsiz töhfələr verən "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti ilin bütün fəsillərində insanların rahat gediş-gəlişinin təmini, daşınan yüklərin vaxtında ünvana çatdırılması işlərini uğurla həyata keçirir. Bir qədər keçmişə nəzər salsaq, görərik ki, müstəqilliyimizin ilk illərində qış mövsümü dəmiryolçular üçün çətin və məşəqqətli dövr kimi yadda qalıb. Bu dövrdə ciddi nöqsanlar özünü göstərirdi. Lakin son illərdə muxtar respublikada dəmir yolu nəqliyyatının maddi-texniki bazasının müasir tələblər səviyyəsində qurulması, bu sahədəki mövcud potensialdan düzgün istifadə edilməsi həmin xoşagəlməz halların tamamilə aradan qaldırılmasına imkan verib. Sevindirici haldır ki, dəmiryolçular hər il olduğu kimi, bu il də payız-qış mövsümünə hazırlıq tədbirlərini vaxtında başa vurublar.*

## Qış mövsümündə rahat gediş-gəliş təmin olunacaq



"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumata görə, payız-qış mövsümü ilə əlaqədar görülən işlər təhlil edilib, aşkar olunmuş nöqsanlarla bağlı şöbə, idarə və sahə əməkdaşlarına müvafiq göstərişlər verilib, nəzərdə tutulmuş işlərin icrası vaxtında yerinə yetirilib. Belə ki, Culfa Lokomotiv Deposunda istismar olunacaq 5 elektrovoza və 5 manevr-magistral teplovozuna texniki baxış keçirilib, hərəkət və dartı hissələri müayinə olunaraq, onlarda cari və depo təmirləri aparılıb. Lokomotivlərin normal və fasiləsiz işini təmin etmək məqsədilə Bakı şəhərindən 100 ədəd daraqlı əyləc və 200 ədəd çuqun tormoz qəlibi, 500 kiloqram qaynaq çubuğu, 15 cüt ox yastığı, 1 ədəd mühərrikin silindr başlığı alınıb. Bundan əlavə, 138 müxtəliftipli vaqonda cari və depo təmiri aparılıb, 23 ton ox, 16 ton reduktor, 31 ton dizel və 944 kiloqram sürtkü yağları ehtiyatı yaradılıb. İstilik sistemləri ilə təchiz edilən sərnişin vaqonlarının qış mövsümündə qızdırılması üçün 78,5 ton daş kömür alınıb.

Mövsümlə əlaqədar xidməti ərazilərdə qatarların təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə bütün yolların, yoldəyişən və süni qurğuların, yol yatağının vəziyyəti yoxlanılıb, kəskin ehtiyac duyulan sahələrdə 8 min 366 rezin altlıq, 4 min 650 mis rels birləşdiricisi dəyişdirilib, 4 min 96 təzə ağac, 41 dəmir-beton, 366 yarımyararlı ağac şpallardan və 24 dəst izomaterialdan istifadə edilib. Yolun təmiri məqsədilə yararsız relslər digərləri ilə əvəz olunub. Həmçinin stansiyalarda hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün 370 ədəd istismar müddəti ötmüş müxtəliftipli rele və radiorabitə bloku, 505 metr magistral və 1800 metr rabitə kabelləri dəyişdirilib. Eləcə də ərazilərdə istismar olunan 47 ədəd 10/0,4 kilovoltluq müxtəliftipli güc, 2 ədəd 110/35/10 kilovoltluq və 4 ədəd 110/10 kilovoltluq alçaldıcı, 10 ədəd isə dartı transformatorları təmir edilib.

"Naxçıvan Dəmir Yolları" MMC-dən onu da öyrəndik ki, ötən müddətdə dəmir yolu obyektlərinin və elektrovozların fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə də bir sıra işlər görülüb. Belə ki, xidməti ərazilərdə alçaq və yüksəkgərginlikli elektrikötürücü hava və kontakt şəbəkəsi xətlərində təmir işləri aparılıb, 198 müxtəliftipli yararsız izolyator, 5 travers, 31 kontakt şəbəkəsi dayağında yük kompensatorunun trosu və 34 dayağın fərdi torpaqlanması bərpa edilib. Bütün texniki, inzibati və yardımçı binaların dam örtüklərinə, qapı və pəncərələrinə baxış keçirilib, nasos stansiyalarının xətləri, qurğu və avadanlıqları yoxlanılıb, çatışmazlıqlar aradan qaldırılıb. Qış mövsümündə təhlükəsizlik komandalarına məxsus inzibati binaların və Culfa yanğın qatarının qızdırılması üçün odun ehtiyatı yaradılıb. Əsaslı təmir olunan və yenidən qurulan inzibati binalarda 11 fərdi qazanxana quraşdırılıb, təmir sexlərində və digər strukturlarda isə 8 ədəd "Kombi" markalı qızdırıcıdan istifadə olunur. İstismar edilən bütün qazanxanalara texniki baxış keçirilərək saz vəziyyətə gətirilib.

Yuxarıda sadalanan tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsi belə deməyə əsas verir ki, dəmiryolu nəqliyyatı qış mövsümündə iş ahəngini pozmayacaq, dəmiryolçular gələn yaza böyük əhval-ruhiyyə ilə qədəm qoyacaqlar.

**✍ Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2018-ci ilin noyabr ayında bir sıra qərarlar qəbul etmişdir.

Nazirlər Kabinetinin 2018-ci il 3 noyabr tarixli qərarları ilə "Ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində akkreditasiya olunmuş orqanlar tərəfindən yoxlanılan ölçmə vasitələrinin Siyahısı"nda, "Elektrik enerjisindən istifadə Qaydaları"nda və "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda dəyişikliklər edilmişdir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2018-ci il 8 noyabr tarixli qərarları ilə "Elektron xidmət növlərinin Siyahısı"nda dəyişiklik edilmiş, "Rayon mədəniyyət saraylarının Nümunəvi Tədbirlər Planı" təsdiq edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2018-ci il 24 noyabr tarixli Qərarı ilə "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinin Əsasnaməsi" təsdiq edilmişdir. Həmçinin Nazirlər Kabinetinin 2018-ci il 30 noyabr tarixli qərarları ilə "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə və "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsi"ndə dəyişikliklər edilmiş, Naxçıvan Turizm İnformasiya Mərkəzinin və "Naxçıvan mətbəxi" Kulinariya Mərkəzinin əsasnamələri təsdiq edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

*Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər bu ilin ötən dövründə də davam etdirilmişdir.*

Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 13 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülmüşdür. Ümumilikdə, ötən dövrdə Dövlət Miqrasiya Xidmətinə daxil olan 630 müraciətin 112-si əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazələrin, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, eləcə də Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə bağlı olmuşdur. Həmçinin müraciətlərin hər biri ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmiş, olduğu yer üzrə qeydiyyatla bağlı 518 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərindən 200-ü elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri də həyata keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Miqrasiya Xidmətinin***
***mətbuat xidməti***

***Qədim və orta əsrlərdə yaşayış məskənləri salınarkən insanların suya olan tələbatının ödənilməsi zərurətini nəzərə alaraq, əsasən, çay sahilləri seçilirdi. Ona görə də hər hansı bir yaşayış məskəninin sakinləri, yaxud da ətraf ərazilərdə məskunlaşan əhali bir yerdən digər yerə gedərkən həmin çaylar onların rahat hərəkətinə mane olurdu. Bu səbəbdən də insanların, həmçinin bu ərazilərdə hərəkət edən karvanların işini asanlaşdırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilirdi. Maneələri aradan qaldırmaq üçün iri çayların üzərində körpülər salınmağa başlanmışdır. Orta əsrlər zamanı geniş miqyas almış bu iş, hətta dövlət siyasəti səviyyəsinə qədər yüksəlmişdir. Beləliklə, digər ölkələrdə olduğu kimi, Azərbaycanda, o cümlədən onun qədim mədəniyyət mərkəzlərindən olan qədim diyarımızda da tələbata uyğun olaraq kiçik və böyükölçülü körpülər inşa edilməyə başlandı.***

*Memarlıq incilərimiz*

## Tarixi-mədəni irsimizin yadigarı

# Qazançı körpüsü



Dünən



Bu gün

Məlumdur ki, Naxçıvan Böyük İpək Yolunun və onun qollarının keçdiyi əsas ərazilərdən biri olmuşdur. Orta əsrlər zamanı bu yol, əsasən, Ordubad ərazisindən başlayaraq Araz boyu qərbə doğru uzanaraq Sədərəyə qədər getmiş, oradan Osmanlı imperiyası ərazisinə daxil olmuşdur. Həmin yoldan istifadə edən ticarət karvanları, həm də əks-istiqamətə – Şərqə doğru hərəkət etmişlər. Həmçinin çayboyu gedib-gələn karvanlar müəyyən yerlərdə Araz çayını keçərək cənuba, eyni zamanda şimala doğru da hərəkət etmişlər.

Azərbaycan xalqının adət-ənənələri sırasında xeyirxahlıq məqsədilə yol saldırmaq, kəhrizlər qazdırmaq, su xətləri çəkdirmək, körpülər tikdirmək və digər bu kimi işlərin görülməsi təqdir edildiyindən bir sıra hökmdarlar və imkanlı şəxslər bu cür işlərlə məşğul olmuş, o cümlədən körpülər inşa etdirmişlər. Həmin dövrdə, həmçinin bütöv bir yaşayış məskəninin əhalisinin gücü və vəsaiti ilə inşa etdirilən körpülər də olmuşdur.

Bölgə əhalisinə və ərazidən keçən ticarət karvanlarına xidmət etmək məqsədilə orta əsrlər zamanı salınmış həmin körpülərdən zəmanəmizədək nisbətən salamat gəlib çatanlar və dağılmış vəziyyətdə olanlar da vardır. Belə körpülərdən biri də muxtar respublikanın böyük çaylarından olan Əlincəçay üzərində orta əsrlər zamanı Culfa rayonunun Qazançı kəndinin cənub tərəfində inşa edilmiş biraşırımlı körpüdür. Körpünün eni 3,55 metr, uzunluğu 10,85 metr, hündürlüyü 8,8 metrdir. Yerli əhali arasında "Qozbel körpü" adı ilə tanınan bu körpü zəmanəmizədək nisbətən salamat vəziyyətdə gəlib çatmışdır. Nəqliyyat üçün yararsız olsa da, müşahidələrimizə əsasən deyə bilərik ki, çayda suyun çox olduğu vaxtlarda həmin ərazidə hərəkət edən insanlar və heyvan sürüləri bir sahildən o biri sahilə keçmək üçün körpüdən yararlanırlar. Körpü az yonulmuş çapma daşlardan inşa olunmuş, tağların haşiyəsi və arxivoltu (körpünün tağını çərçivəyə alan çıxıntılı haşiyə) təmiz yonulmuş qumdaşı ilə işlənmişdir. Buna görə də tağın kənarı körpü divarının yonulmamış səthindən fərqlənərək onun konstruksiyasını nəzərə çatdırır.

Körpü Azərbaycanın "qozbel" körpülər tipinə aiddir. Körpünün dayaqları çayın sahillərində təbii özüllər – iri qayalar üzərində oturdulmuşdur. Çay yataqlarındakı qayalar davamlı təbii özüllər olduğundan körpülər inşa edilərkən onların konstruktiv sistemi bu möhkəm dayaqlar arasında qurulan tağbənd aşırımlarından yaradılırdı. Qaya özüllər həm də körpünü olduğu yerə, təbii landşafta birbaşa bağlayırdı. Bu zaman körpünün orta üfüqi hissəsi, bir qayda olaraq, pandus (tikintilərdə pilləkən əvəzinə istifadə edilən maili müstəvi) şəklində sahilə enirdi. Bu forma azaşırımlı körpülərə "qozbel" biçimi verirdi. Belə biçim təbiətə bağlılıq, tikinti materiallarına qənaət baxımından əlverişli olmaqla körpünü aramsız sellərə qarşı da daha dayanıqlı edirdi. Xalqımızın keçmiş körpüsalma ənənələrini və təcrübəsini parlaq surətdə əks etdirən Qazançı körpüsü də bu tələblərə uyğun inşa edildiyindən elmi ədəbiyyatda və xalq arasında "Qozbel körpü" kimi dəyərləndirilir.

Körpü Qazançı kəndindən keçən, qərbə və şərqə hərəkət edən, Ordubad ərazisində Böyük İpək Yolunun əsas marşrutlarına birləşən ticarət karvanlarına və əhaliyə xidmət etmişdir. Şərq memarlıq üslubunda inşa edilən və Azərbaycan ərazisində zəmanəmizədək müəyyən qədər salamat vəziyyətdə gəlib çatan biraşırımlı körpülərin möhtəşəm nümunələrindən olan bu abidənin üzərində epiqrafik sənəd – kitabə olmadığı üçün onun inşa tarixi haqqında dəqiq elmi fikir söyləmək mümkün deyil. Ancaq tikinti texnikasına və memarlıq-konstruktiv quruluşuna əsasən körpünü XVII əsrin əvvəllərinə, Səfəvi hökmdarı I Şah Abbasın dövrünə (1587-1629-cu illər) aid etmək olar.

Körpü zaman keçdikcə təbii qüvvələrin təsirindən, xüsusilə keçən yüzillikdə baxımsızlıqdan aşınmalara məruz qalmış, bəzi yerləri uçub dağılmışdı. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığı ilə 2018-ci ilin iyul ayından körpüdə bərpa işlərinə başlanılmışdır. Keçən müddət ərzində burada bir sıra işlər görülmüş, ilk növbədə, Naxçıvan-Ərəfsə yolundan körpünün yerləşdiyi əraziyə asfalt yol çəkilmişdir. Yeni çəkilən yolun kənarlarında sürüşmənin qarşısını almaq, güclü sel sularının yaranması zamanı körpünün təhlükəsizliyini təmin etmək üçün digər tədbirlər həyata keçirilmişdir. Körpünün ətrafında 120 metr sahilbərkitmə işləri aparılmışdır. Dəmir-betondan 50 metr uzunluğunda istinad divarı salınmış və onun üzəri dağ daşları ilə üzlənilmişdir.

Tikintisində müxtəlif həcmli çay və dağ daşları, bərkidici kimi isə əhəng məhlulundan istifadə edilən biraşırımlı körpünün bərpası zamanı yükdaşıyan hissəsinin aşınmış daşları dəyişdirilərək yenisi ilə əvəz olunmuş, daşların arası tamamilə təmizlənərək əhəng məhlulu ilə yenidən bərkidilmişdir. Körpünün şimal tərəfdən yol ilə birləşən hissəsi orijinallığı saxlanılmaqla bərpa edilmişdir. Nəticədə, körpünün uzunluğu ilkin şəklinə, yəni 50 metrə çatdırılmışdır. Bütün bu işlərin yerinə yetirilməsində yerli dağ daşlarından istifadə olunmuşdur. Ümumiyyətlə, Qazançı kəndinin cənub tərəfində yerləşən və kəndin adı ilə "Qazançı körpüsü" adlandırılan bu memarlıq abidəsi orijinallığı saxlanılmaqla yüksək səviyyədə bərpa olunmuş, onun əvvəlki görkəmi özünə qaytarılmışdır.

Körpüdə aparılan bərpa işləri 2018-ci ilin noyabr ayında başa çatdırılmışdır. Noyabrın 30-da Qazançı körpüsü tarixi-memarlıq abidəsi bərpadan sonra istifadəyə verilmişdir. Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iştirak etmiş, körpünün bərpadan sonrakı vəziyyəti ilə tanış olmuşdur. Tanışlıq zamanı Ali Məclisin Sədri muxtar respublikada bərpa olunmayan tarixi abidələrin müəyyən edilməsi və onlarda bərpa işlərinin aparılması, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi tərəfindən Qazançı körpüsü haqqında tarixi mənbələrdən məlumatların toplanılması və monoqrafiya şəklində nəşr olunması, Qazançı körpüsü haqqında materialların və fotoşəkillərin internetdə yerləşdirilməsi və tanıdılması barədə tapşırıqlar vermişdir.

*Beləliklə, muxtar respublika ərazisində zəmanəmizədək gəlib çatan daha bir tarixi abidəyə – Qazançı körpüsünə yeni həyat verilərək xalqa qaytarılmış, körpünün orta əsrlər zamanı və sonrakı dövrlərdə Qazançı kəndinin və ətraf yaşayış məskənlərinin əhalisinin həyatında oynadığı rol özünə qaytarılmışdır. Əminliklə deyə bilərik ki, muxtar respublikamızda tarixi-mədəni irsimizin qorunub yaşadılmasına göstərilən dövlət qayğısı nəticəsində digər tarixi abidələrimiz də elmi əsaslarla, keyfiyyətli şəkildə bərpa edilərək yenidən xalqımızın ixtiyarına veriləcəkdir.*

**Fəxrəddin SƏFƏRLİ**
**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü**



## “CNN arabic” telekanalının internet saytında Haçadağla bağlı məqalə yerləşdirilib

*Bu il noyabrın 28-də dünyanın aparıcı media qurumlarından olan “CNN arabic” telekanalının rəsmi internet saytında “Azərbaycanda zirvəsi iki hissəyə parçalanmış İlanlı dağ və onun Haçadağ adlandırılmasının səbəbi” sərlövhəli məqalə yerləşdirilib.*

Yaxın Şərqdəki ərəbdilli ölkələrdə milyonlarla insan tərəfindən izlənilən bu kanalın saytında son zamanlar ölkəmizin zəngin tarixi, mədəniyyəti, adət-ənənələri, mətbəxi və turizm potensialı haqqında silsilə məqalələr dərc edilir. Naxçıvanın simvolu sayılan Haçadağla bağlı məqalə də media qurumunun "Twitter" sosial şəbəkəsindəki səhifəsində milyonlarla izləyicinin marağına səbəb olmuşdur.

Fotoşəkillərlə müşayiət olunan məqalədə Haçadağ Naxçıvan Muxtar Respublikasının əsas simvollarından biri və sirli-sehrli məkan kimi təqdim olunmuş, bu dağ barədə yaranmış əfsanələr diqqətə çatdırılmışdır. Dağın əsas gücü yaxşı insanları pis insanlardan və şər qüvvələrdən qoruması kimi dəyərləndirilmişdir. Vurğulanmışdır ki, Dünya Tufanı zamanı Nuhun gəmisi dağa toxunmuş və onun zirvəsini iki hissəyə ayırmışdır. Bundan sonra bu təbiət abidəsi Haçadağ adlandırılmışdır. Nuhun gəmisi Haçadağdan 100 kilometr aralıda yerləşən daha yüksək dağın ətəyində lövbər salmışdır. Bütün bunlar isə Haçadağın müqəddəsliyini və tarixi əhəmiyyətini artırır.

Müəllif məqalənin sonunda Haçadağın gözəlliyini və mənzərəsini seyr etmək üçün yaxınlıqdakı qədim tarixə malik, iki min pillə ilə zirvəsinə qalxılan Əlincə qalasını da ziyarət etməyi oxuculara tövsiyə edir.

## Hüseyn Cavidin anım günü qeyd olunub

*Dünən Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində böyük romantik şair və dramaturqun anım günü ilə bağlı tədbir keçirilib.*

Tədbirdən əvvəl Hüseyn Cavidin məqbərəsi ziyarət edilib.

Muzeydə davam edən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin baş məsləhətçisi Qumral Əsədova açaraq böyük Azərbaycan şairinin ədəbiyyatımıza gətirdiyi mövzu və forma yeniliklərindən danışıb.

Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov "Hüseyn Cavid irsinə Heydər Əliyev qayğısı" mövzusunda çıxış edərək bildirib ki, ümummilli lider 1982-ci ildə Cavidin cənazəsinin Uzaq Sibirdən Bakıya gətirilməsində müstəsna cəsarət göstərib. Məhz ulu öndərin təşəbbüsü və xidmətləri sayəsində Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi üçün böyük işlər həyata keçirilib, şairin yubileyləri yüksək səviyyədə qeyd edilib. Ötən dövrdə böyük sənətkarın əsərləri teatrlarımızda səhnəyə qoyulub, kitabları nəşr olunub, muzeyləri yaradılıb, onun xatirəsi əbədiləşdirilib, yaradıcılığı tədqiq olunub.

Sonra AMEA Naxçıvan Bölməsinin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərova "Hüseyn Cavid və müasir dövr", pedaqoji elmlər doktoru, dosent Kamal Camalov "Əbədiyaşar Cavid" mövzularında çıxış ediblər.

Tədbirin sonunda görkəmli şairin şeirləri bədii qiraət olunub.

## Qarabağlar Türbə Kompleksinin saytı istifadəyə verilib

***Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən Qarabağlar Türbə Kompleksinin www.garabaglartk.nakhchivan.az internet saytının təqdimatı keçirilib.***

Saytın təqdimatında çıxış edən abidənin bələdçisi Gülçin Ağayeva bildirib ki, Naxçıvan Muxtar Respublikasındakı zəngin maddi mədəniyyət nümunələri və abidələr içərisində Qarabağlar Türbə Kompleksi xüsusi yer tutur. Türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 4 iyul tarixli Sərəncamı əsasında bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. Türk-islam mədəniyyətinin möhtəşəm nümunələrindən və Şərq memarlığının incilərindən biri olan kompleks bir türbə və qoşa minarəli baştağdan ibarətdir.



Qeyd olunub ki, Azərbaycanın qülləvari türbələri tipinə aid olan, 12 yarımsilindrin birləşməsindən əmələ gələn, diametri 10 metrə yaxın, hazırkı hündürlüyü 16 metrə çatan türbənin 4 baştağı vardır. Hər baştağın baş hissəsində "Qurani-Kərim"in "əl-Mumin" surəsinin 16-cı ayəsinin son hissəsi yazılıb. Memarlıq xüsusiyyətləri və kitabələrin yerinə yetirilməsi texnikası göstərir ki, bu abidə Bərdə türbəsini də inşa edən memar Əhməd Əyyub oğlu Naxçıvani tərəfindən yaradılıb.

Bildirilib ki, Qarabağlar Türbə Kompleksinin zalında, ümumilikdə, 200 eksponat sərgilənməkdədir.

Vurğulanıb ki, Qarabağlar Türbə Kompleksinə göstərilən diqqət və qayğının daha bir nümunəsi kompleksin saytının yaradılmasıdır.

Sonra sayt haqqında ətraflı məlumat verilib. Bildirilib ki, sayt 7 bölmə və 4 alt bölmədən ibarətdir.

Diqqətə çatdırılıb ki, sayta yerləşdirilmiş virtual səyahət bölməsi vasitəsilə dünyanın istənilən nöqtəsindən izləyicilər muzeyə virtual səyahət edə biləcəklər.

**Əli RZAYEV**

# Şərq təfəkkürlü Qərb yazıçısı – Moris Meterlink

## “Oxunması zəruri olan kitabların Siyahısı”nda Nobel mükafatı laureatının iki əsəri də var

***Yaradıcılığının şöhrəti zəmanəsinin və ölkəsinin sərhədlərini aşaraq dünyaya yayılan, bu günümüzədək gəlib çatan ədiblərdən biri də belçikalı yazıçı, şair, esseçi, filosof, Nobel mükafatı laureatı Moris Meterlinkdir (Moris Polidor Mari Bernar Meterlink). Yazıçı ixtisasca hüquqşünas olsa da, hələ sağlığında “Belçikalı Şekspir” adı ilə məşhurlaşmağı bacarmışdır.***



Əsərlərində ümumbəşəri ideyaları təbliğ edən müəllifi Şərq düşüncə tərzinə malik bir yazıçı hesab edirlər. Moris Meterlinkin “Müdrikliyin birinci şərti özünü dərk etməkdir” fikri Şərq filosof və şairi Mövlana Cəlaləddin Ruminin “Kitablardan əvvəl özümüzü oxumağa çalışaq”, Şərq filosofu Əbu Turxanın “İnsan ancaq öz “Mən”i ilə həmahəng mühitdə xoşbəxt ola bilər” fikirləri ilə eyniyyət təşkil edir. “Müdrik ol, onda hər şeydən əvvəl xoşbəxt olmağı öyrənəcəksən” qənaətinə gələn Şərq təfəkkürünə malik M.Meterlink “Mən artıq çoxdandır ki, bu dünyada həqiqət və onun dərk olunmasından daha gözəl bir möcüzə axtarmıram” fikrini irəli sürürdü.




Biz yazıçının əsərlərində ölüm və həyat mövzusunun, eyni zamanda reallıqla mistikanın çulğalaşdığının şahidi oluruq. “Çağırılmamış qonaq”, “Korlar”, “Yeddi şahzadə”, “Pelias və Melianda” pyeslərində sadaladığımız amillər özünü daha qabarıq göstərməkdədir. Müəllifin yaradıcılığını xarakterizə edən başlıca cəhətlərdən biri də onun əsərlərində simvolizm elementlərinə daha çox üstünlük verilməsindədir. Oxucular şair-dramaturq, filosof M.Meterlinkin yaradıcılığı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında” 2007-ci il 24 avqust tarixli Sərəncamı ilə nəşr olunan “Nobel mükafatı laureatları” silsiləsinə aid “Moris Meterlink. Seçilmiş əsərləri” kitabı vasitəsilə yaxından tanış olmaq imkanı əldə etmişlər.

Ədibin “Arıların həyatı” romanı və “Göy quş” fəlsəfi pyes-pritçaları isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilmişdir. Qeyd edək ki, Ali Məclisin Sədri cənab Vasif Talıbovun ictimai-mədəni, ədəbi-bədii müstəvidə mühüm əhəmiyyətli hadisə olan bu sərəncamı ilə təsdiq olunmuş siyahıya daxil edilən kitablar gənc nəsildə vətənpərvərliyin, tarixə, milli köklərə bağlılığın formalaşdırılmasına əsaslı təsir göstərəcək ideoloji mənbələr rolunu oynayır. Bu ədəbiyyatlar gənclərin dünyagörüşünü zənginləşdirir, dövlətə, dövlətçiliyə, Vətənə, xalqa bağlılıq hissləri aşılayır.

“Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilmiş “Arıların həyatı” romanı maraqlı əsərlərdəndir. Bu roman müəllifin təbiət hadisələrini, konkret olaraq, arıların həyatını iyirmiillik müşahidəsinin bəhrəsidir. Əsər “Arı pətəyinin önündə”, “Arı beçəsi”, “Məskunlaşma”, “Gənc məlikələr”, “Nikah uçuşu”, “Erkəklərin məhv edilməsi”, “Nəslin tərəqqisi” adlanan yeddi hissədən ibarətdir. Müəllif “Arı pətəyinin önündə” adlanan birinci hissədə arıların həyatını öyrənmək məqsədilə müşahidələr apardığını bildirir və “iyirmiillik arıçılıq həyatımda apardığım bu müşahidələr, əsasən, özəl səciyyəlidir”, – deyə vurğulayır. Yazıçı qeyd edir ki, arılar cəmiyyət halında yaşayan, mürəkkəb qanunlarla idarə olunan kiçik varlıqlar olaraq insanların diqqətini hələ qədim zamanlardan özünə çəkmişdir. Müəllif arı yuvasının birillik tarixçəsini izləməyi asanlaşdırmaq üçün baharda ayılıb öz işinə başlayan ayrıca bir arı təknəsi üzərində müşahidə aparır: “Bu zaman gözlərimiz önündə arıların həyatı ilə bağlı çox əhəmiyyətli epizodlar canlanacaqdır: arının beçə verməsi və beçənin uçub getməsi, başqa bir yerdə məskunlaşma, doğulma, döyüşmə və cavan məlikələrin nikah uçuşları, tənbəl arıların məhv edilməsi və qış yuxusuna dalma. Bu epizodlardan hər biri öz-özlüyündə onları doğuran qanunauyğunluqlara, vərdişlərə, hadisələrə aydınlıq gətirir. Belə ki, aprel ayından başlayaraq ən uzağı sentyabrın sonuna kimi davam edən qısa arı ili ərzində biz bal ətri verən evciyin bütün sirləri ilə tanış olacağıq”. Meterlink arıların qarışqadan daha ictimai varlıq olduğunu hesab edir. Yazıçıya görə təklikdə qalan arı dözməyərək bir neçə gündən sonra tələf olur.

“Arıların beçəsi” adlanan ikinci hissədə arılar arasında vəzifə bölgüsündən bəhs olunur. Müəllif arıların bu dərəcədə zəhmətkeş olmasını izah etməyə çalışır: “Nə üçün onlar öz qanadlı qardaşları kəpənəkdən fərqli olaraq yuxudan, balın ləzzətindən, eşqdən və gözəl əyləncədən imtina edirlər? Onlar da kəpənək kimi yaşaya bilməzdilərmi? Ancaq onları hərəkətə gətirən aclıq deyil. Özlərini doydurmaq üçün onlara bir-iki çiçək kifayətdir. Onlar isə heç vaxt dadmayacaqları bir həzz damlası üçün bir saat ərzində iki-üç yüz çiçək gəzirlər”.

“Arıların həyatı” romanının III hissəsi “Məskunlaşma” adlanır. Burada arıların insanlar tərəfindən müxtəlif təknələrə məskunlaşdırılmasından bəhs olunur. M.Meterlink müşahidələrinin nəticəsi olaraq romanda arıların hədsiz təmizkarlığını bu cür ifadə edir: “Arıların təmizkarlığı maniya həddinə çatır: bəzən qışın ortalarında şiddətli şaxtalar onlara uzun müddət “təmizlik uçuşları” həyata keçirməyə imkan vermədikdə belə, onlar dəhşətli bağırsaq xəstəliyinə tutularaq qırılmağı təknəni zibilləməkdən üstün tuturlar”. Yazıçı arıların düzəltdiyi hücrələrin məhz altıbucaqlı olmasının bir təsadüf olmadığını və bunu arıların bu fiqurun üstünlüklərindən xəbərdar olması ilə əlaqələndirir. Müəllif bu altıbucaqlı hücrələri “arı sənətinin şedevri” hesab edir.

Romanın digər hissələrində də müəllifin maraqlı müşahidələrinin şahidi olmaq mümkündür. “Öz işini yaxşı bilən keşikçilər düşmənçilik instinktlərinin təzahürlərini saatbasaat neytrallaşdırmaq və əks qüvvələri ümumi səmərəli məcraya yönəltmək üçün səylərini əsirgəmirlər”. “Yaxşı arı yuvalarından hər biri səksən-yüz litrə qədər bal verir. Onlar, sanki, içində arıların sıx-sıx ziyarət etdiyi bütöv çiçək tarlalarının əridiyi böyük işıq məkanıdır”. Müəllif əsərində dörd min beş yüz müxtəlif arı növünün olduğunu vurğulayır.

Sonda yazıçı arı zəhmətkeşliyi, nizam-intizamı, təmizkarlığı və digər bu kimi müsbət xüsusiyyətləri ilə insanların eyni xüsusiyyətləri arasında maraqlı paralellər aparır və belə bir qənaətə gəlir ki, əslində, təbiətin hər bir varlığında öyrənilməli, diqqətdə saxlanılmalı çoxlu və maraqlı məqamlar var!

Nobel mükafatçısının “Oxunması zəruri olan kitabların Siyahı”sına daxil edilən digər məşhur əsəri “Göy quş” pyesidir. 1905-ci ildə tamamlanan bu pyes müəllifin adını əbədiləşdirərək onu yaradıcılıq zirvəsinə ucaldır. Moris Meterlink 1911-ci ildə Nobel Mükafatına layiq görülür. “Təxəyyül zənginliyi və poetik fantaziyanın qüdrəti ilə diqqətçəkən pyeslərinə görə” Nobel mükafatı verilərkən onun şair-dramaturq kimi “çoxcəhətli ədəbi fəaliyyəti” əsas götürülür. Qeyd edək ki, mütəxəssislər M.Meterlinkin Nobel mükafatına layiq görülməsində “Göy quş” pyesinin xüsusi rolunu vurğulayırlar.

Yazıçı “Göy quş” fəlsəfi pyes-pritçasında Asiya xalq nağıllarına xas olan simvol-surətlər vasitəsilə həyatı müdrikcəsinə xarakterizə edir. Bu əsərdə “insan ruhunun ölməzliyi”nin təbliğ olunması da Şərq fəlsəfidini dünyagörüşünün cizgilərindəndir.

“Göy quş” pyesi nikbin ideyaları təlqin edir. Uşaq nağılı poetikasında yazılmış bu fəlsəfi əsər müdrik və ibrətamiz duyğular aşılayır. Odunçunun oğlu Tiltil və qızı Mitilin qonşudakı xəstə qıza əlac etmək üçün Milad bayramı gecəsi sehrli Göy quşun axtarışına çıxaraq başqa xatirələr, gecənin sarayı, meşə, xoşbəxtliklər bağı, xoşbəxt gələcək dünyalarına səyahətlərindən bəhs olunur. Səyahət zamanı onlar dünyadan çoxdan köçmüş nənə-babalarının, eləcə də ağacların, heyvanların, işığın və gecənin gizlətdiyi təbiət sirlərinin ruhları ilə qarşılaşırlar. Əsərin sonunda bacı və qardaş yuxudan oyanaraq öz dünyalarına qayıdırlar. Məlum olur ki, onların səyahəti bir gecə ərzində baş verib. Onlar başa düşürlər ki, xoşbəxtlik simvolu olan Göy quş hər kəsin



öz qəlbindədir. Hər bir insanın xoşbəxtliyi onun qəlbindəki sevgi və xeyirxahlıqdır. Xoşbəxt olmaq istəyənlər xeyirxah olmağı bacarmalıdırlar. Ən böyük xoşbəxtlik isə ana, valideyn sevgisidir. Əsərdəki uşaq obrazları bəşəriyyətin xoşbəxt gələcəyini simvolizə edərək əsərin ideyasının açılmasına xidmət edir. Göründüyü kimi, dramaturq başqa pyesləri kimi, bu əsərində də xalq nağılının formasından istifadə edərək insanın təbiət qüvvələri, aclıq və müharibə üzərində qələbəsi fikirlərini simvolik şəkildə çatdırır.

Məhz bu dramaturji məziyyətlərinə görə əsər 1908-ci ildən başlayaraq Moskva, Nyu-York, Paris, London və digər dünya paytaxtlarında uğurla tamaşaya qoyulub.

XX əsrin əvvəllərində Azərbaycan teatrı da Meterlinkin həmin əsərinə müraciət etmiş və pyes Əbdürrəhim bəy Haqverdiyevin tərcüməsində “Abı quş” adı ilə milli teatrımızın səhnəsində dəfələrlə oynanılmışdı.

Qeyd edək ki, yazıçının ən gözəl səhnə əsərlərindən biri olan “Göy quş” pyesi ötən il iyun ayında Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq Naxçıvan teatrında səhnəyə qoyulan bu ikihissəli fəlsəfi əsər sənət hadisəsi kimi yadda qalıb. Naxçıvan teatrında ilk dəfə Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovun rejissorluğu ilə səhnələşdirilib.

Tamaşaya baxışda iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yaradıcı heyəti uğurlu tamaşa münasibətilə təbrik edərək demişdir: ***“Naxçıvan teatrında tarixi, dram, komediya və digər janrlarda əsərlər oynanılıb. Son dövrlərdə fəlsəfi janrda yazılmış əsərlər də səhnəyə qoyulur. Belə əsərlərdən biri də “Göy quş” pyesidir. Rejissor işi, səhnə dekorasiyaları, musiqi tərtibatı, peşəkar aktyorlarla yanaşı, muxtar respublikada fəaliyyət göstərən teatrların həvəskar və gənc aktyorlarının çıxışları tamaşanın uğurlu alınmasına səbəb oldu.***

***...Fəlsəfi janrda yazılmış əsərlər çətin qavranılmasına baxmayaraq, böyük mənalar ifadə edir. Ona görə də tamaşa muxtar respublikanın rayonlarında da göstərilməli, geniş kütləyə təqdim olunmalıdır. Tamaşanın uğurlu alınması həm də Naxçıvanın inkişafının göstəricisidir. Çünki hər bir yerin inkişafı, təkcə iqtisadi inkişafla deyil, həm də mədəni inkişafla ölçülür. Mədəni inkişaf olmadan ümumi inkişafı təmin etmək mümkün deyil”.***

Yaradıcılığı ilə əbədi şöhrət zirvəsini fəth edən belçikalı yazıçı, şair, esseçi, filosof, Nobel mükafatı laureatı Moris Meterlinkin bədii irsinin öyrənilməsinə və təbliğinə maraq muxtar respublikada gələcəyimiz olan gənc nəsli hərtərəfli dünyagörüşə və bəşəri dəyərlərə malik, dünya klassiklərinin yaradıcılığının ideya-bədii səciyyəvi xüsusiyyətlərindən, onların yaratdıqları şedevrlərdən xəbərdar şəkildə formalaşdırmaq kimi mühüm bir mərama xidmət edir.

**Çinarə İSMAYILOVA**
*Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının əməkdaşı*

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2018-ci ilin noyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2934 | 220,5 | 220,5 | 100,0 |
| 2. | Şərur rayonu | 1851 | 131,6 | 131,6 | 100,0 |
| 3. | Babək rayonu | 1197 | 86,0 | 86,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 996 | 70,8 | 70,8 | 100,0 |
| 5. | Culfa rayonu | 845 | 63,4 | 63,4 | 100,0 |
| 6. | Kəngərli rayonu | 456 | 32,4 | 32,4 | 100,0 |
| 7. | Şahbuz rayonu | 447 | 31,5 | 31,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 223 | 15,7 | 15,7 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 26814 | 2413,3 | 2408,8 | 99,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **35763** | **3065,2** | **3060,7** | **99,9** |

**Qeyd:** Noyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 35 milyon 763 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 65 min 200 manat olmuş, cəmi 3 milyon 60 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,9 faizini təşkil edir.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 884